| | | |
|---|---|---|
| **Ümumi məlumat** | **Fənnin kodu və adı** | MED315, Mülki müdafiə və ilkin tibbi biliklərin əsasları |
| | **Kreditlərin sayı** | 6 AKTS |
| | **Departament / Fakültə** | Həyat elmləri / Təbiət elmləri və Mühəndislik |
| | **Proqram** | Bakalavr |
| | **Tədris semestri** | 2025/2026-cı tədris ilinin yaz semestri |
| | **Fənni tədris edən müəllimlər** | Mais Talışxanov / Dr. Cəmalə Eldarova |
| | **E-mail** | mtalishkhanov@khazar.org / jeldarova@khazar.org |
| | **Telefon** | 421 6335 (daxili nömrə 242) |
| | **Dərs otağı, dərs cədvəli** | Elşən Mehtiyev 408 2a, (Bakıxanov kampusu)<br>Mühazirə / Seminar məşğələ:<br>Otaq: 406; Çərşənbə axşamı 08.30 – 11.40. |
| | **Məsləhət saatı** | Tələbələrlə razılaşmadan sonra vaxt təyin ediləcək |
| **Prerekvizitlər** | Yoxdur | |
| **Tədris dili** | Azərbaycan dili | |
| **Fənnin növü** | Məcburi seçmə | |
| **Dərsliklər və əlavə ədəbiyyat** | ***Əsas dərsliklər:***<br>1. Əliyev S.C. və b. Tibbi biliklərin əsasları. Dərslik. Bakı, 2013, 514 s.<br>2. Abbasov M. və b. İlk yardım. Müəllimlər üçün vəsait. Bakı, 2017, 240 s.<br>3. Ocaqov H.O. Fövqəladə hallarda təhlükəsizlik (Mülki Müdafiə) (Ali məktəblər üçün dərslik). Bakı, 2010, 396 s.<br>4. Musayev A.H. Mülkü müdafiə tibbi xidmətinin təşkili. Dərslik.Bakı, “Təbib” nəşriyyatı, 2011, 165 s.<br>5.Арустамов Э.А., Косолапова Н.В., Прокопенко Н.А. Безопасность жизнедея-тельности. 2015, 176 с.<br>6. Qorkova, Messineva, Fetisov. Oxrana truda. Dərslik. “Lan” nəşriyyatı, 2020-ci il. 220 s.<br>***Əlavə vəsaitlər:***<br>1. Şadlinski V.B., Hüseynova G.A. İnsan anatomiyası. Dərslik. Bakı, “Müəllim” nəşriyyatı, 2009, 240 s.<br>2. Məmmədov A.M., Sudakov K.V. Normal fiziologiya. Dərslik. Bakı, “Təbib” nəşriyyatı, 2011.<br>3. Əzizov V.Ə. Daxili xəstəliklər. Dərslik. Bakı-2012, 976 s.<br>4. İsayev C.P. İnfeksion xəstəliklər. Dərslik. Bakı, Təhsil, 2009, 443 s.<br>5. First aid manual. Amerıcan College of Emergency Physıcıans. 2014, p.288.<br>6. Ocaqov H.O., Danyalov Ş.D. Həyat fəaliyyətinin təhlükəsizliyinin nəzəri əsasları. Dərs vəsaiti. Bakı, 2008, 140 s.<br>7. Abbasov Ə. Q. Əməyin mühafizəsi və elektrik təhlükəsizliyi. Dərslik, Bakı 2014, 169 s.<br>8.Təbii fəlakətlər riskinin azaldılması üzrə müəllimlər üçün metodik vəsait / DIPECHO layihəsi. | |
| **Tədris metodları** | **Mühazirə** | x |

<table>
<tr><td></td><td colspan="2">Qrup müzakirəsi</td><td>x</td></tr>
<tr><td></td><td colspan="2">Praktik tapşırıqlar</td><td>x</td></tr>
<tr><td></td><td colspan="2">Praktik məsələnin təhlili</td><td>x</td></tr>
<tr><td rowspan="9">Qiymətləndirmə</td><td>Komponentləri</td><td>Tarix/son müddət</td><td>Faiz (%)</td></tr>
<tr><td>Davamiyyət</td><td>Semestrin sonunda</td><td>5</td></tr>
<tr><td>Fəallıq</td><td>Hər dərs</td><td>5</td></tr>
<tr><td>Yazılı yoxlama işi (Quiz)</td><td>Semestr ərzində 2 dəfə (aralıq və final imtahanlarındam əvvəl)</td><td>10</td></tr>
<tr><td>Prezentasiya</td><td>Semestr ərzində</td><td>10</td></tr>
<tr><td>Aralıq imtahanı</td><td>Cədvəl üzrə</td><td>30</td></tr>
<tr><td>Final imtahanı</td><td>Cədvəl üzrə</td><td>40</td></tr>
<tr><td>Yekun</td><td></td><td>100</td></tr>
<tr><td>Kursun təsviri</td><td colspan="3">Bu kurs insanın həyat fəaliyyətinin təhlükəsizliyi (tibbi biliklərin əsasları, əmək mühafizəsi və mülki müdafiə) məsələlərini əhatə edir.<br>Tibbi biliklərin əsasları bəhsi həyat fəaliyyətinin təhlükəsizliyinin tibbi əsasları, insan orqanizminin normal anatomiyası və fiziologiyası haqqında, fövqəladə hallarda zəhərlənmələr və xəstələnmələr zamanı ilk yardım və xəstələrə qulluq, xəstəlik haqqında anlayış, müxtəlif sistemlərin xəstəliklərinin təsviri, həkiməqədər yardım və profilaktikası, qəzalar və fəlakətlər zamanı tibbi yardım barəsindəki biliklərə həsr olunmuşdur.<br>Əmək mühafizəsi bəhsi özündə istehsalatda həyat fəaliyyətinin ümumi məsələlərini, insan-yaşayış və iş mühiti sistemində neqativ amilləri, təhlükəsizlik texnikasını, yanğın və partlayış hadisələrində həyat fəaliyyətinin təhlükəsizliyini əks etdirir.<br>Vahid Sağlamlıq (One Health) bəhsi insan, heyvan və bitki daxil olmaqla qida və ətraf mühitin ən yaxşı sağlamlığına nail olmaq üçün müxtəlif yerli tədbirlərin, xəstəliklərin idarə edilməsi və qarşısının alınması strategiyaları haqda məlumatları əks etdirir.<br>Mülkü müdafiə bəhsi fövqəladə hallar və onların xarakteristikası, fövqəladə hallarda yaranmış şəraitin qiymətləndirilməsi və əhalinin mühafizəsi, obyektlərin işinin dayanıqlığı, rabitə, xəbərdarlığın təşkili və həyat fəaliyyətinin təhlükəsizliyinin təmini, fövqəladə hadisələrdən mühafizə sahəsində əhalinin hazırlanması haqqındakı məlumatları cəmləşdirir.</td></tr>
<tr><td>Kursun məqsədi</td><td colspan="3">Kursun əsas məqsədləri aşağıdakılardır:<br>• Tələbələrdə insan orqanizminin əsas anatomo-fizioloji xüsusiyyətləri haqqında fundamental biliklərin formalaşdırılması<br>• Əsas xəstəliklərin yaranma səbəbləri və onların profilaktikası haqqında anlayışların inkişaf etdirilməsi<br>• Əmək təhlükəsizliyi qaydaları və sağlam iş mühitinin qorunması prinsiplərinin öyrədilməsi<br>• Mülki müdafiə sisteminin əsas anlayışları və əhalinin fövqəladə hallardan qorunması tədbirləri haqqında biliklərin formalaşdırılması<br>• Fövqəladə vəziyyətlər zamanı tibbi fəaliyyətin əsas prinsiplərinin izah edilməsi</td></tr>
</table>

| | |
|---|---|
| | • Travmalar, qanaxma, yanıq, sınıq və digər təcili hallarda ilkin tibbi yardım göstərilməsi bacarıqlarının inkişaf etdirilməsi<br>• Tələbələrdə fövqəladə hallarda düzgün qərar vermək və təhlükəsiz davranış vərdişlərinin formalaşdırılması<br>• İlkin tibbi yardımın təşkili və zərərçəkənlərin təhlükəsiz şəkildə yardım müəssisələrinə çatdırılması haqqında biliklərin verilməsi |
| **Tədrisin (öyrənmənin) nəticələri** | **Kursun sonunda tələbələr nəyi bilməlidirlər və bacarmalıdırlar:**<br>1. İnsan orqanizminin inkişaf qanunauyğunluqlarını bilərək, insanın yaş dövrünə uyğun dəyişiklərini izah etmək<br>2. Sağlamlıq və xəstəlik haqqında mənimsənilən ümumi məlumatlara əsasən onları fərqləndirmək<br>3. Tipik patoloji proseslərin bəzi formalarının (hüceyrə zədələnməsi, mikrosirkulyasiya və periferik qan dövranının pozulması, iltihab və qızdırma) baş vermə səbəblərini izah etmək<br>4. Yaniqları və yanma dərəcələrini fərqləndirərək müvafiq yardımın göstərilməsini bacarmaq<br>5. Kapilyar, venoz və arterial qan damarlarını fərqləndirmək və müvafiq damarların qanaxmaları zamanı zamanı ilk yardım göstərmək<br>6. Ürəyin dayanması, bayılma və epilepsiya tutmalarını izah etmək, ilk yardım zamanı insan həyatını xilas etmək üçün fərqli üsullardan istifadə etməyi bacarmaq<br>7. İlk yardım gələnə qədər süni tənəffüs verməyi baçarmaq və bunun yaşdan asılı olaraq müxtəlif üsullarını bilmək<br>8. İstehsalat sahələrində həyat fəaliyyətinin təhlükəsizliyinin təminini və insanlar üçün təhlükə törədən amilləri müəyyənləşdirməyi bacarmaq<br>9. Planetin vahid sağlamlığının, insan, heyvan və bitkilər daxil olmaqla ekosistem sağlamlının nədən ibarət olduğunu izah etmək<br>10. Fövqəladə hallar və onların baş vermə səbəblərini izah etmək<br>11. Fövqəladə hallar zamanı qorunmaq və və ilk yardım üsullarını izah etmək<br>12. Fövqəladə hadisələrin xəbərdar edilməsinin növlərini fərqləndirmək və vasitələrindən istifadə etmək, fövqəladə hallarda davranış qaydalarının əhaliyə çatdırılması üsulları və yollarını bilmək<br>13. Fövqəladə hallarda əhalinin mühafizəsinin prinsipləri və üsullarını, zədələnmiş insanlara ilk tibbi yardımın göstərilməsini bacarmaq |

| | |
|---|---|
| **Qaydalar**<br>**(tədris siyasəti və davranış)** | **<u>Dərsin təşkili</u>**<br>- Fənnə aid ümumi xarakterli məlumatlar dərs zamanı tələbələrə çatdırılacaqdır.<br>- Yeni mövzu əyani vasitələrin (PPT və video fayllar) nümayişi ilə izah ediləcəkdir.<br>- Aralıq və final imtahanları öncəsi tələbələrin mənimsəmə səviyyələri ***(Quiz)*** yoxlanılacaqdır.<br>- Dərs zamanı tələbələrin əvvəlki mövzunu mənimsəmələri <u>şifahi və yazılı sorğunun keçirilməsi</u> ilə hər dərs qiymətləndiriləcəkdir, semestrin sonunda isə ortaq qiymət çıxarılacaqdır ***(Fəallıq).***<br>- Semestr ərzində fərdi mövzuda prezentasiyalarınverilməsi vacibdir. Prezentasiya vaxtı, sonunda müzakirə də daxil olmaqla 15-dəqiqədən artıq olmamalıdır. Prezentasiya mövzuları və qaydaları haqda dərsdə daha geniş tanışlıq olunacaqdır.<br>**<u>Ümumi qaydalar</u>**<br>**Davamiyyət**<br>Tələbələrin bütün dərslərdə iştirakı vacibdir. Tələbələr müəyyən səbəblərdən dərslərin buraxılması (xəstəlik, ailə vəziyyəti və s.) haqqında məlumatı fakültə dekanlığına təqdim etməlidirlər. 25%-dən artıq dərs bu raxan tələbələr imtahana buraxılmır.<br>**Gecikmə**<br>Tələbə dərsə 15 dəqiqədən artıq gecikmişdirsə, tələbəyə qayıb yazılır və tələbə dərs saatına buraxılır.<br>**Yoxlama işi (Quiz)**<br>Müəllimə və dekanlığa qabaqcadan məlumat verilən səbəblərdən yoxlama işində iştirak etməyən tələbə yoxlama işini növbəti həftədə yaza bilər.<br>**İmtahanlar**<br>Tələbənin imtahanda iştirakı və ya imtahanın buraxılması ilə bağlı bütün məsələlər fakültə rəhbərliyi tərəfindən həll olunur. İmtahanda iştirak etməmə yalnız dekanlığın icazəsi ilə mümkündür. İctimai fəaliyyətlə əlaqədar imtahanlardan yayınma hallarına yol verilmir . İmtahanlar kumulyativ xarakterli olmalıdır. Aralıq və yekun imtahanların mövzuları tələbələrə imtahandan öncə verilir. Son imtahanda sualların əksəriyyəti aralıq imtahandan sonra keçirilmiş materialların əsasında tərtib olunur.<br>**Tələbənin kursu başa vurması**<br>60% və daha artıq bal toplamış tələbə kursu bitirmiş hesab olunur. Əks halda tələbə bu kursu yenidən keçməlidir.<br>**İmtahan qaydalarının pozuntuları**<br>İmtahanlarda mövcud qayadaların pozulması (köçürmə cəhdləri, köçürmələr, imtahanın gedişini pozmaq və digər qanunsuz hərəkətlər ) hallarında tələbənin imtahan işi ləğv olunur.<br>**Dərslərdə davranış**<br>Tələbə dərs zamanı müvafiq akademik şəraitin yaradılması üçün mümkün olan hər şeyi etməlidir. İcazəsiz danışığa, lüzumsuz hərəkətlərə və s. qeyri-etik davranışa qətiyyən yol verilmir.Tələbə dərsdə fəal şəkildə iştirak etməli, lazım olduqda suallar verməli və müzakirələrdən kənarda qalmamalıdır.<br>***Dərs zamanı dərs prosesini və etik qaydaları pozmaq, həmçinin tələbələr arasında icazəsiz müzakirələr və mobil telefonlardan istifadə qadağandır.*** |

**MÖVZULAR ÜZRƏ SAATLARIN TƏXMİNİ BÖLGÜSÜ VƏ TƏQVİM-TEMATİK PLAN**

| Həftə | Tarix | Mövzular | Dərsliklər |
|---|---|---|---|
| **1.** | **17.02.26** | <u>**Mülki Müdafiə**</u><br>**Mövzu 1.**<br>**1) Mülki müdafiə haqqında anlayış. Fövqəladə hallar və onların xarakteristikası.**<br>Respublikamızın ərazisində baş verə biləcək təbii və texnogen xarakterli fövqəladə halların xarakteristikası və onların nəticələri. Hərbi xarakterli fövqəladə halların xarakteristikası. Nüvə partlayışının səbəbləri, onun canlılara zədələyici amilləri, binalara və qurğulara dağıdıcı təsiri. İşıq şüalanması və bunun nəticəsində yanğınların baş verməsi. | Əsas dərslik 3 (Fəsil 1.1-1.2) |
| **2.** | **24.02.26** | **Mövzu 2.**<br>Radioaktiv zəhərlənmə zonaları, nəticələri və ionlaşdırıcı şüaların insan orqanizminə, cihaz və avadanlığa təsiri. Kimyəvi zədələnmə ocaqları və xarakteristikası.<br>**Mövzu 3.**<br>2) Fövqəladə hallarda yaranmış şəraitin qiymətləndirilməsi. Radioaktiv, kimyəvi, yanğın şəraitləri haqqında ümumi anlayış, bu şəraitlərlə əlaqədar kəşfiyyatlar və kəşfiyyatlardan alınan məlumatlar əsasında həqiqi şəraitin qiymətləndirilməsi, ehtimal olunan şəraitin proqnozlaşdırılması və qiymətləndi-rilməsi.<br>Nüvə partlayışı və radiasiya səviyyəsinin eyni vaxtda olması haqqında ümumi məlumat. | Əsas dərslik 3 (Fəsil 2) |
| **3.** | **03.03.26** | **Mövzu 4.**<br>Radioaktiv maddələrlə zəhərlənmə, zəhərlənmə zonasında şüalanma dozasının, zəhərləyici maddələrin dayanıqlıqlarının müəyyən edilməsi və bu zonada təhlükəsiz qalma müddəti. Fəhlələrin, qulluqçuların, əhalinin və dəstələrin şəxsi heyətinin təyini və mühafizə vasitələrində qalma müddətinin müəyyən edilməsi. Zəhərlənmə zonasında obyektlərin və texnikanın dayanıqlıqlarının müəyyən edilməsi.<br>Radiasiya və kimyəvi kəşfiyyat haqda anlayış. Dozometrik cihazlar, onların təsnifatı, əsas | Əsas dərslik 3 (Fəsil 3) |

| | | | |
|---|---|---|---|
| | | xarakteristikaları və onlardan istifadə edilmə qaydaları. Tibbi xidmətin kimyəvi cihazları, təyinatı və quruluşu. | |
| 4. | 10.03.26 | **Mövzu 5.**<br>**3) Fövqəladə hallarda əhalinin mühafizəsi.**<br>Fövqəladə hallarda Mülki Müdafiənin rolu, qüvvələri, onların vəzifələri və yaradılması. Fövqəladə hallarda Dövlət sistemi və onun əsas vəzifələri. Fövqəladə hallarda əhalinin mühafizəsinin əsas prinsipləri və üsulları. Mülki müdafiə mühafizə qurğuları, onların təyinatı və təsnifatı. Sığınacaqlar, onların həcmi - planlaşdırma, konstruktiv, mühəndis-texnika avadanlıqları və sığınacaqların iş rejimləri. | Əsas dərslik 3 (Fəsil 4.1-4.3) |
| 5. | 17.03.26 | **Mövzu 6.**<br>Sadə və radiasiya daldalanacaqları, onların mühafizə qabiliyyıətlərinin yüksəldilməsi yolları. Mühafizə qurğularının sülh dövründə saxlanılması və istifadəsi. Fövqəladə hallarda fərdi və tibbi mühafizə vasitələri, onların təsnifatı və istifadə edilməsi qaydaları. Fövqəladə hallarda obyektlərin iş fəaliyyətinin və əhalinin mühafizə rejimləri, dozimetrik və kimyəvi nəzarətin təşkili. | Əsas dərslik 3 (Fəsil 4.4) |
| 6. | 24.03.26 | **Mövzu 7.**<br>**4) Fövqəladə hallarda obyektlərin işinin dayanıqlığı (mövzuda ixtisasa uyğun yanaşma).**<br>Fövqəladə hallarda obyektlərin iş dayanıqlığı haqda anlayış, mahiyyəti, təsir edən amillər və dayanıqlıq dərəcəsinin qiymətləndirilməsi.<br>Mülki müdafiənin mühəndis-texniki tədbirlərinin layihələndirilməsində normalar və bu normaların həyata keçirilməsi. Fövqəladə hallarda obyektlərin iş qabiliyyətinin yüksəldilməsi yolları və üsulları. | Əsas dərslik 3 (Fəsil 5) |
| 7. | 31.03.26 | **Mövzu 8.**<br>**5) Fövqəladə halların nəticələrinin aradan qaldırılması (mövzuda ixtisasa uyğun yanaşma).**<br>Fövqəladə halların nəticələrinin aradan qaldırılmasının nəzəri əsasları, bərpa işlərinin növləri, işlərin növbəliliyi, ardıcıllığı və mərhələlərlə aparılması.<br>Fövqəladə halların nəticələrinin aradan qaldırılmasına cəlb edilən qüvvə və vasitələr. Xilasetmə və digər təxirəsalınmaz işlərin (XvəDTİ) məqsədi, tərkibi və icrasının xüsusiyyətləri. XvəDTİ aparılmasının taktiki üsulları, istehsalat qəzaları və fəlakətlərin nəticələrinin aradan qaldırmaq üçün qüvvə və vasitələrin qruplaşdırılması. XvəDTİ icrasının xüsusiyyətləri, təbii | Əsas dərslik 3 (Fəsil 6.1-6.3) |

| | | | |
|---|---|---|---|
| | | fəlakət və istehsalat qəzalarının nəticələrini aradan qaldırarkən mülki müdafiə dəstələrinin fəaliyyətinin təmini, ərzaq və sənaye mallarının mühafizəsi və zərərsizləşdirilməsi. XəDTİ mənəvi və psixoloji hazırlığı. | |
| **8.** | **07.04.26** | **Mövzu 9.**<br>**6) Fövqəladə hallarda rabitə, xəbərdarlığın təşkili və həyat fəaliyyətinin təhlükəsizliyi nin təmini.**<br>Fövqəladə hallar zamanı idarəetmə və idarəetmə məntəqələri, təyini və yerləşdirilməsi. İdarəetmənin növləri, mülki müdafiədə rabitə və xəbərdarlıq sistemləri, onların vəzifələri, təşkili prinsipləri və rabitə xəbərdarlıq vasitələri. Obyetlərdə, şəhərlərdə rabitə və xəbərdarlığın təşkili. Xəbərdarlıq siqnallarının verilmə qaydaları, əhalinin, idarəetmə orqanlarının və qüvvələrin təşkili, planlaşdırılması, təlimin prinsiplərinin metod və formaları. | Əsas dərslik 3 (Fəsil 7.1-7.3) |
| **9.** | **4.04.26** | **Aralıq imtahanı** | |
| **9.** | **14.04.26** | **Mövzu 10.**<br>**7) Fövqəladə hadisələrdən mühafizə sahəsində əhalinin hazırlanması.**<br>Fövqəladə hadisələrdən mühafizə sahəsində əhalinin hazırlanması Mülki müdafiənin əsas vəzifələrindən biri kimi. İdarəetmə orqanlarının və qüvvələrin fövqəladə hallara hazırlığı. | Əsas dərslik 3 (Fəsil 8.1) |
| **10.** | **21.04.26** | **Mövzu 10.**<br>İşləyən və işləməyən əhaliyə Mülki müdafiənin öyrədilməsinin təşkili, planlaşdırılması və öyrədilməsi. Obyektdə Mülki müdafiə üzrə hazırlıq planlarının tərtibi, obyekt mülki müdafiə rəhbərinin əmri və tədris ilində Mülki müdafiə üzrə tədbirlərin təqvim planlarının tərtibi. | Əsas dərslik 3 (Fəsil 8.2-8.3) |

| | | | |
|---|---|---|---|
| 11. | 28.04.26 | **<u>Tibbi biliklərin əsasları</u>**<br>**Mövzu 11.**<br>**Life Science (Tibbi biliklərin əsasları, həyat fəaliyyətinin təhlükəsizliyi və Mülki müdafiə) fənni, onun vəzifələri.**<br>İnsan orqanizminin müxtəlif şəraitə adaptasiyası, ekoloji faktorlar, onların insan orqanizminə təsiri. Sağlamlıq və xəstəlik anlayışları. Tipik patoloji proseslərin bəzi formaları (hüceyrə zədələnməsi və iltihab). Epidemiologiyanın əsasları. Dezinfeksiya, dezinseksiya, deratizasiya. Fövqəladə hallarda əhalinin tibbi təminatı və tibbi xidmətin təşkili. İlk tibbi yardım və onun təşkili. Günvurma zamanı ilk yardım.<br>**Tibbi yardımın anatomik-fizioloji əsasları.**<br>İnsan orqanizminin hüceyrə və toxumalarının quruluş və funksional xüsusiyyətləri. Qan və limfa sistemləri. Qan qrupları və rezus-amil haqqında anlayış. Donorluq və qan hazırlığı. Qanın laxtalanması. Qanaxmaların təsnifatı. Tənəffüs sisteminin morfo-funksional xüsusiyyətləri və xəstəlikləri. Həzm sisteminin morfo-funksional xüsusiyyətləri və xəstəlikləri. Dayaq-hərəkət aparatının morfo-funksional xüsusiyyətləri və xəstəlikləri. Ürəyin morfo-funksional xüsusiyyətləri və xəstəlikləri. Sinir sistemi və duyğu üzvləri. Endokrin sistem və xəstəlikləri. Bədən hərarəti, nəbz, arterial təzyiq: onların təyini və qiymətləndirilməsi. | Əsas dərslik 1 (Fəsil 1,2,4)<br>Əsas dərslik 2 (Mövzu 1,3) |
| 12. | 05.05.26 | **Mövzu 12.**<br>**Fövqəladə hallarda zədələnmiş adamlara yardım, istifadə olunan dərmanlar.**<br>Yumşaq toxumaların əzilməsi. Bağların, vətərlərin və əzələlərin gərilməsi və qırılması. Çıxıqlar, sümük sınıqları. Bu proseslər zamanı ilk tibbi yardım. İmmobilizasiya, şinaların qoyulması. Miokard infarktı, kəskin ürək (ürək astması, ağciyər ödemi) və damar (bayılma, kollaps) çatmamazlığı zamanı ilk tibbi yardım. Ürəyin qapalı masajı. Dəri üzəri, dərialtı, əzələdaxili və venadaxili inyeksiyaların yerinə yetirilmə üsullarının öyrədilməsi. Qapalı və açıq zədələnmələr. Zədə şoku. Ürək fəaliyyətinə təsir edən maddələr. Damargenəldici və spazmolitik dərman maddələri. Qanın laxtalanmasına təsir edən maddələr. Mikroblar əleyhinə işlədilən maddələr. | Əsas dərslik 1 (Fəsil 6)<br>Əsas dərslik 2<br>( Mövzu 20,33,34,37) |

| | | | |
|---|---|---|---|
| 13. | 12.05.26 | **Mövzu 13.**<br>**Fövqəladə hallarda zəhərlənmələr və xəstəliklər zamanı həkimə qədər ilk yardım və xəstələrə ümumi qulluq. Bioloji zədələnmə ocağında yoluxucu xəstəliklər zamanı ilk tibbi yardım. Qəzalar və fəlakətlər zamanı tibbi yardım.**<br>Suda boğulma, onun növləri. Mexaniki asfiksiya zamanı ilk yardımın texnikası. Suda batanların xilas edilmə üsulları və onlara ilk tibbi yardımın göstərilməsi. Süni tənəffüsün verilmə qaydaları. Bağırsaq infeksiyaları. Virus hepatitləri. Kəskin zəhərlənmələrdə ilk yardımın təşkili. Qida zəhərlənmələri zamanı ilk yardım tədbirləri. “Kəskin qarın” haqqında anlayış. Kəskin peritonit: əlamətləri, ilk tibbi yardım. Tetanus və qazlı qanqrena. Yanıqlar, donmalar, elektrozədələr: ilk tibbi yardım. Yaralar. Cərrahi infeksiya, antiseptika və aseptika üsulları. Desmurgiya. Sidiyin miqdarı, tərkibi və xassələri. Kateterizasiya. | Əsas dərslik 1<br>(Fəsil 8)<br><br>Əsas dərslik 2<br>(Mövzu 31,35,36,40) |
| 14. | 19.05.26 | **Əməyin mühafizəsi.**<br>**Mövzu 14.**<br>**İstehsalatda həyat fəaliyyətinin ümumi məsələləri.**<br>İnsan fəaliyyətinin formaları, təhlükə haqqında anlayış, əmək fəaliyyətinin təmin edilməsində profilaktik tədbirlərin rolu.<br>**İnsanın yaşayış və iş mühitində neqativ amillər.**<br>Metroloji parametrlər və onların insan orqanizminə təsiri, onlardan mühafizə tədbirləri. Neqativ amillərin parametrlərinin ölçülməsi üçün istifadə edilən cihazlar. Komfort iş şəraiti<br>**Təhlükəsizlik texnikası və həyat fəaliyyətinin təhlükəsizliyi (elektrik təhlükəsizliyinin təmini, texnoloji avadanlıqların istifadəsində təhlükəsizlik tədbirləri).**<br>Qurğu, cihaz və aparatların etibarlılığının, möhkəmliyinin təhlükəsizlikdə rolu. Fərdi təhlükəsiz geyimlər, vasitələr və onların təhlükəsizlikdə rolu.<br>**Yanğın, partlayış hadisələri və həyat fəaliyyətinin təhlükəsizliyi.**<br>Otaqda və binada tez alovlanan və alışan maddələrin olub olmamasının tədqiqi. | Əsas dərslik 5<br>(Fəsil 1,2) Əlavə dərslik 7 |

| | | | |
|---|---|---|---|
| **15.** | **26.05.26** | **<u>Vahid Sağlamlıq</u> (One Health)**<br>**Mövzu 15.**<br>İnsan, heyvan və bitki daxil olmaqla qida və ətraf mühitin ən yaxşı sağlamlığına nail olmaq üçün müxtəlif yerli tədbirlərin təşkil edilməsi yolları, məlumatların effektiv yayılması yollarının və xəstəliklərin idarə edilməsi və qarşısının alınması strategiyalarının planetin vahid sağlamlığında rolu. | |
| | | **Final imtahanı** | |

Bu tədris proqramı fənn haqqında tam məlumatı özündə əks etdirir və hər hansı dəyişiklik barədə öncədən xəbər veriləcəkdir.